

# Uğurlu sahibkarlıq mühiti, sabitlik və tərəqqi

**Azərbaycanın müstəqilliyə qədəm qoyduğu ilk illər təkcə siyasi baxımdan deyil, həm də iqtisadi cəhətdən ölkəmiz üçün böyük sınaqlar dövrü oldu. Xalqın ümid çırağı 1993-cü ilin isti iyun günlərində yenidən işıq saçdı. Ulu Öndər Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışı ölkəmizi məhvə sürükləyən fəlakətlərə qarşı əsl siparə çevrildi.**

Ulu öndər Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində Azərbaycan nəinki sabitliyə qovuşdu, həm də inkişaf yoluna qədəm qoydu. Dahi şəxsiyyət çox yaxşı bilirdi ki, güclü dövlətin təməli sağlam iqtisadiyyatdan, onun iqtisadiyyatın dirəyi isə sahibkarlardan asılıdır. Məhz buna görə də Ulu Öndər ilk gündən iqtisadi islahatlara, xüsusən də sahibkarlığın inkişafına xüsusi önəm verdi. İmzalanan fərmanlar, sərəncamlar, Milli Məclisə təqdim olunan mühüm qanun layihələri ilə Azərbaycanda sahibkarlığın yolu açıldı. Prezident Heydər Əliyev iş adamları ilə birbaşa görüşlər keçirərək problemləri öyrənir, onların həlli üçün konkret tədbirlər görürdü. Bu, sadəcə idarəçilik deyildi, xalqla bir yerdə, millət üçün çalışan liderin məsuliyyəti idi.

Xüsusi vurğulanmalıdır ki, 1993-cü ildə qəbul olunan "Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)" Dövlət Proqramı, eləcə də sonrakı illərdə həyata keçirilən islahatlar nəticəsində ölkədə minlərlə kiçik və orta sahibkar fəaliyyətə başladı, iş yerləri yarandı, iqtisadiyyat yeni nəfəs qazandı. Xüsusilə 17 iyun 1996-cı il və 7 yanvar 1999-cu il tarixli fərmanlarla əsassız yoxlamaların qarşısı alındı, süni maneələr ləğv edildi, sahibkarlıq fəaliyyəti üçün daha sağlam zəmin yaradıldı. 1997-2000-ci illəri əhatə edən yeni Dövlət Proqramı isə bu islahatların davamı olaraq sahibkarlığı iqtisadi siyasətin prioritet istiqamətinə çevirdi. Bu, Azərbaycanın iqtisadi gələcəyinə mühüm uğur gətirdi.

1993-2003-cü illər isə Azərbaycanın iqtisadi dirçəliş tarixinə qızıl hərflərlə yazıldı. Bu dövr yalnız sabitliyin bərqərar olması və inkişafın təməl daşlarının qoyulması ilə deyil, həm də sahibkarlığın qanunvericilik müstəvisində də gücləndirilməsi ilə yadda qaldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə sahibkarlıq fəaliyyətinin hüquqi bazası yaradıldı, iqtisadi sistem bazar münasibətləri əsasında formalaşmağa başladı. Artıq sahibkarın arxasında qanun dayanırdı. Hüquqi təminatlar gücləndirilir, rəqabət mühiti təşviq olunur, iqtisadiyyatın özünü tənzimləmə mexanizmləri inkişaf etdirilirdi. İqtisadi azadlığın hüquqi əsaslar üzərində möhkəmlənməsi prosesi sürətlə davam etdirilirdi. Xüsusilə 2 sentyabr 2002-ci il tarixli sənədin təsiri bu gün də hiss olunur. Ulu Öndərin "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Fərmanı sahibkarların qarşısındakı bürokratik sədləri kökündən söküdü. Lisenziyalaşdırma sistemi, demək olar ki, başdan-ayağa yenidən quruldu, mürəkkəb prosedurlar sadələşdirildi, vaxt itkiləri aradan qaldırıldı, bir sözlə sahibkar rahat nəfəs aldı. Əvvəllər 240 fəaliyyət növü üçün lisenziya tələb olunurdu, bu rəqəm 30-a endirildi. Bu, iqtisadi azadlığa açılan qapı, azərbaycanlı sahibkarın "mən də bacararam!" deyə yola çıxması üçün yaradılan geniş meydan idi.

Ulu Öndərin sahibkarlara qayğısı kontekstində 25 aprel 2002-ci ildə yerli sahibkarlarla görüşünü xüsusi vurğulamaq lazımdır. Məhz 25 aprel günü artıq 9 ildir ki, Sahibkarlar Günü kimi qeyd olunur. Sözügedən görüş həm həmin dövr, həm də gələcək üçün Azərbaycanda sahibkarların qarşısında olduqca böyük perspektivlər açdı. Prezident Heydər Əliyevin birbaşa direktivləri sahibkarlar qarşısında dayanan əngəllərin aşılması üçün əsaslı yol xəritəsinə çevrildi. Ulu Öndər tədbirdə həmişəki kimi səmimi münasibəti, isti davranış tərzi ilə əsl dövlət qayğısını iştirakçılara göstərdi: "Bu gün bu görüşdə isə bizim məqsədimiz Azərbaycanda yerli sahibkarların vəziyyəti ilə daha da yaxından tanış olmaqdan ibarətdir. Yəni yerli sahibkarların işində nə kimi çətinliklər var, onların işinə mane olan amillər nədən ibarətdir, dövlətin, hökumətin qanunlarının, sərəncamlarının, qərarlarının yerinə yetirilməsinə mane olan səbəblər nədən ibarətdir və nəhayət sahibkarların işinin daha da səmərəli olması üçün nə etmək lazımdır. Bu məqsədlə də biz bu gün sizinlə görüşə gəlmişik".

Bəli, bu gün ölkəmizdə mövcud olan biznes mühiti, sahibkarlıq ruhu və iqtisadi sabitliyin təməli məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində qoyulub. Onun ardınca gələn hər bir uğur, hər bir iqtisadi göstərici böyük ideyaların davamıdır. Təsadüfi deyil ki, bu gün həmin tədbirdə iştirak edən sahibkarlar da ulu öndərin qayğısını yüksək qiymətləndirirlər. **Azərbaycan Sahibkar Qadınlar İctimai Birliyinin sədri, 2012-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmiş Zenfira Ağayeva** tədbir iştirakçılarından biri kimi Heydər Əliyevlə ilk tanışlığını bölüşdü, sahibkarlarla görüşün nə qədər əhəmiyyətli olduğunu vurğuladı: "Azərbaycanda sahibkarlığın inkişafına dövlət dəstəyi təsadüfi bir prosesin nəticəsi deyil. Bu, öz köklərini ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətindən, onun cəmiyyətin bütün təbəqələrinə, xüsusilə də qadınlara verdiyi dəyərdən alır. Bu gün minlərlə qadın sahibkarın uğurla fəaliyyət göstərməsi məhz həmin siyasi iradənin bəhrəsidir. 2001-ci ildə yaranan Sahibkar Qadınlar İctimai Birliyi bu böyük siyasətin bir parçasıdır. Təşkilatın Ulu Öndərin şəxsi dəstəyi və razılığı ilə dövlət qeydiyyatına alınması qadın sahibkarlığının rəsmi tanınması idi. 2002-ci il aprelin 25-i isə Azərbaycanın iqtisadi həyatına qızıl hərflərlə yazılan günlərdən biri oldu. Məhz ulu öndər Heydər Əliyev yerli sahibkarlar və ölkəmizdə fəaliyyət göstərən xarici iş adamları ilə mühüm görüş keçirdi. Bu görüş Azərbaycanın sahibkarlıq tarixində dönüş nöqtəsi, iqtisadi dirçəlişin simvoluna çevrilmiş bir başlanğıc idi. Deyə bilərik ki, məhz o günlərdə sahibkarlığın real təməlləri qoyuldu. Dövlətin sahibkara əl uzatdığı, sahibkarın isə bu inama cavab verməyə başladığı məqam idi. O gündən sonra iqtisadiyyatımızda yeni bir dövr, yeni bir canlanma başladı. İstehsal genişləndi, xidmət sektoru dirçəldi, özəl təhsil müəssisələri və klinikalar bir-birinin ardınca açıldı. Sahibkarlıq artıq yalnız biznesin deyil, sosial rifahın, cəmiyyətin inkişafının mühüm dayağına çevrildi. Yadımdadır, məhz həmin tədbirdə Ulu Öndərlə ilk görüşümüzdə zalda cəmi 8 nəfər qadın sahibkar var idi. Heydər Əliyev zala daxil olar-olmaz dərhal göstəriş verdi: "Qadınlar ön sıraya keçsin". Və sonra bəlkə də heç vaxt unuda bilməyəcəyimiz sözlər səsləndi: "Siz çox nahaq arxada oturmusunuz. Sizin yeriniz öndədir. Siz çətin və şərəfli yoldasınız, bunu heç vaxt unutmayın". Bu sözlər bizim üçün həm motivasiya oldu, həm də məsuliyyət. Həmin gündən bəri yolumuza daha da inamla davam edirik.

Hər il 25 apreldə qeyd olunan Sahibkarlar Günü sadəcə bir təqvim günü deyil. Bu, zəhmətin, təşəbbüsün və milli iqtisadi ruhun bayramıdır. Ulu öndər Heydər Əliyevin müdrik siyasəti ilə başlanan bu yol təkcə ticarət və istehsalla məhdudlaşmadı. Dövlətin sahibkara verdiyi hər mükafat, təqdim etdiyi hər diplom əslində xalqın iqtisadi azadlığına verilən qiymət idi. Bu gün isə Ulu Öndərin ideyalarını əzm və ardıcıllıqla həyata keçirən Prezident İlham Əliyev həmin yolu daha da genişləndirir. İqtisadiyyatımızın hər sahəsinə, xüsusilə də qadın sahibkarlığın inkişafına göstərilən dəstək bu siyasətin canlı davamıdır. Son illərdə qəbul olunan qərar və sərəncamlar, qadın sahibkarlar üçün yaradılan imkanlar bir daha göstərir ki, Azərbaycan dövləti qadının iqtisadi gücünə inanır. İşğaldan azad olunmuş torpaqlarda qadın sahibkarların addımları yeni həyatın rəmzinə çevrilib. Onlar doğma torpağın iqtisadi dirçəlişinə töhfə verməyə yollanıblar".

Ölkəmizdə sahibkarlığın təməlini təşkil edən 25 aprel - Sahibkarlar Günü, həmçinin qadınların bu xüsusdakı mühüm rolu ilə bağlı **Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSİA) İdarə Heyətinin sədri Səkinə Babayeva** da öz fikirlərini bölüşdü. Qadın sahibkarların Azərbaycanda iqtisadiyyatın inkişafına və cəmiyyətin hərtərəfli inkişafına verdiyi töhfələri vurğuladı: "Azərbaycanda qadın sahibkarlığının dəstəklənməsi və inkişafı ölkənin iqtisadi müstəqilliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan hökuməti tərəfindən qadın sahibkarlığının inkişafına yönəlmiş müxtəlif proqramlar həyata keçirilir. Bu proqramların arasında mikro və kiçik biznesin dəstəklənməsi, sahibkarların təlim və məsləhət xidmətlərinə çıxışlarının asanlaşdırılması da yer alır. Sözügedən təşəbbüslər yalnız iqtisadiyyatı gücləndirmək üçün deyil, həm də qadınların sosial mövqeyini yaxşılaşdırmaq və onların kişilərlə bərabər hüquqlara sahib olmalarını təmin etmək məqsədi daşıyır. Digər tərəfdən, qadın sahibkarların rolu ilə bağlı daha geniş ictimaiyyətin məlumatlandırılması olduqca vacibdir. Qadın sahibkarlar yalnız ailə büdcələrini gücləndirmək deyil, həm də cəmiyyətin hərtərəfli inkişafına töhfə verirlər. Qadın sahibkarlığının təşviqi, Azərbaycanın gələcək iqtisadi və sosial inkişafı baxımından strateji əhəmiyyət kəsb edir".

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin mərkəzində bir əsas hədəf dayanır: güclü, rəqabətli və dayanıqlı özəl sektorun qurulması. Bu, Azərbaycanın gələcək rifahının sütunudur. Ölkəmizdə azad bazar iqtisadiyyatının formalaşması, sağlam rəqabət mühitinin yaradılması istiqamətində atılan addımlar birbaşa sahibkarlığın inkişafına yönəlib. Dövlət başçısının regionların sosial-iqtisadi inkişafına dair proqramlarda da yerli sahibkarlığın gücləndirilməsi, iqtisadi dövriyyədəki çəkisinin artırılması xüsusi önəm daşıyır. Əminliklə qeyd edə bilərik ki, özəl sektor Azərbaycan iqtisadiyyatının 80 faizdən çoxunu əhatə edir və artmaqda davam edir. Bu, həm də bir mesajdır ki, Azərbaycan dövləti sahibkara inanır, ona güvənir və onunla birgə gələcək uğurlara addımlayır.

**Nurlan ABDALOV,**
**"Respublika".**